UOT 379.85
Turan HƏSƏNLİ
Doktorant, Azərbaycan Kooperasiya Universiteti
e-mail: hasanli.turan1@gmail.com
https://orcid.org/0009-0009-2118-5785
DOI: doi.org/10.61226/12.2.2023/20254.13

RİSKLƏRİN İDARƏ EDİLMƏSİ TURİZM FƏALİYYƏTİ SUBYEKTLƏRİNİN İQTİSADİ TƏHLÜKƏSİZLİNİN TƏMİNİ İSTİQAMƏTLƏRİNDƏN BİRİ KİMİ

Xülasə. Məqalədə turizm subyektlərinin iqtisadi təhlükəsizliyinin təminində risklərin idarə edilməsinin əhəmiyyəti əsaslandırılır. Qeyd edilir ki, son dövrlər turizm bazarında yaranmış vəziyyət, rəqabət şərtlərinin ciddiləşməsi, turizmin təhlükə və təhdidlərə həssaslığının artması risk idarəçiliyinin təşkilini aktuallşdırmışdır. Turizmdə müxtəlif növ risklərin baş vermə ehtimalı onların idarə edilməsi, təsirlərinin azaldılması, qarşısının alınması üçün idarəetmə tədbirlərinin planlaşdırılması və reallaşdırılmasını, məsələyə sistemli yanaşmanı şərtləndirir. Risklərin idarə edilməsinin təhlili göstərir ki, turizm subyektlərində iqtisadi təhlükəsizliyin daha səmərəli təmini üçün risk əsaslı idarəetmə üsulunun tətbiqi daha məqsədəuyğundur və bu, metodun daha geniş funksionallığı və üstünlüklər təmin etməsi ilə əsaslandırılır. Risklərin idarə edilməsinin səmərəliliyinin artırılması üçün korporativ mədəniyyətin və xüsusi struktur bölməsinin formalaşdırılmasının vacibliyi vurğulanır. Bildirilir ki, Azərbaycanda əksər turizm subyektlərinin təşkilati-idarəetmə strukturunda risklərin idarə edilməsi bölmələri fəaliyyət göstərmir, bölmələrin yaradılması hələ ilkin formalaşma mərhələsindədir və bu prosesin sürətləndirilməsinin vacibliyi diqqətə çatdırılır. Belə nəticəyə gəlinir ki, risklərin idarəçiliynin strategiyasının və reallaşdırılması mexanizminin işlənməsi, turizm subyektlərində risk idarəçiliyi bölmələrinin yaradılması və risklərin idarə edilməsinin subyektin ümumi idarəetmə sisteminə inteqrasiyasına nail olunması mühüm vəzifələrdəndir və onun icrası, subyektlərə iqtisadi təhlükəsizliyin təmini, turizm bazarında səmərəli və dayanıqlı fəaliyyət, rəqabətqabiliyyətlilik, gəlirlilik və s. baxımından müəyyən üstünlüklər yaradar. Bu səbəbdən turizm subyektləri risklərin idarə edilməsi bölmələrinin yaradılması məsələsini ön plana çəkməli və həllinə nail olmalıdırlar.

Açar sözlər: turizm subyektləri, iqtisadi təhlükəsizlik, risk təhlükəsi, risklərin idarəçiliyi, risk idarəçiliyi strategiyası.

RISK MANAGEMENT AS ONE OF THE DIRECTIONS OF ENSURING THE ECONOMIC SECURITY OF TOURISM ACTIVITY SUBJECTS

Summary. The article substantiates the importance of risk management in ensuring the economic security of tourism subjects. It is noted that the recent situation in the tourism market, the severity of competition conditions, and the increased sensitivity of tourism to dangers and threats have made the organization of risk management relevant. The possibility of various types of risks in tourism necessitates the planning and implementation of management measures to manage, reduce, and prevent them, as well as a systematic approach to the issue. The analysis of risk management shows that the application of risk-based management methods is more appropriate for more effective provision of economic security in tourism entities, and this is justified by the wider functionality and advantages of the method. The importance of forming a corporate culture and a special structural unit is emphasized to increase the efficiency of risk management. It is noted that in Azerbaijan, risk management units do not operate in the organizational and management structure of most tourism entities, the creation of units is still at the initial stage of formation, and the importance of accelerating this process is brought to attention. It is concluded that the development of a risk management strategy and implementation mechanism, the creation of risk management units in tourism entities, and the integration of risk

management into the general management system of the entity are important tasks, and its implementation will create certain advantages in terms of ensuring economic security for entities, efficient and sustainable activity in the tourism market, competitiveness, profitability, etc. For this reason, tourism entities should prioritize the issue of establishing risk management units and achieve a solution.

Keywords: tourism entities, economic security, risk threat, risk management, risk management strategy.

УПРАВЛЕНИЕ РИСКАМИ КАК ОДНО ИЗ НАПРАВЛЕНИЙ ОБЕСПЕЧЕНИЯ ЭКОНОМИЧЕСКОЙ БЕЗОПАСНОСТИ СУБЪЕКТОВ ТУРИСТСКОЙ ДЕЯТЕЛЬНОСТИ

Аннотация. В статье обосновывается важность управления рисками в обеспечении экономической безопасности субъектов туризма. Отмечается, что современная ситуация на туристском рынке, обострение конкурентных условий, возросшая чувствительность туризма к опасностям и угрозам обусловили актуальность организации управления рисками. Возможность возникновения различных видов рисков в туризме обусловливает необходимость планирования и реализации управленческих мер по их управлению, снижению и предотвращению, а также системного подхода к решению этой проблемы. Анализ управления рисками показывает, что применение методов управления, основанных на оценке рисков, является наиболее целесообразным для более эффективного обеспечения экономической безопасности субъектов туристической сферы, что обусловлено широкими функциональными возможностями и преимуществами данного метода. Подчеркивается важность формирования корпоративной культуры и специального структурного подразделения для повышения эффективности управления рисками. Отмечается, что в Азербайджане подразделения по управлению рисками не функционируют в организационно-управленческой структуре большинства субъектов туристской сферы, создание таких подразделений находится на начальном этапе становления, и подчеркивается важность ускорения этого процесса. Сделан вывод о том, что разработка стратегии управления рисками и механизма ее реализации, создание подразделений по управлению рисками в субъектах туристской сферы, а также интеграция управления рисками в общую систему управления субъекта являются важными задачами, реализация которых создаст определенные преимущества с точки зрения обеспечения экономической безопасности субъектов, эффективной и устойчивой деятельности на туристском рынке, конкурентоспособности, прибыльности и т. д. В связи с этим субъектам туристской сферы следует уделять первоочередное внимание созданию подразделений по управлению рисками и добиваться их решения проблем в этой сфере.

Ключевые слова: турстские субъекты, экономическая безопасность, угроза риска, управление рисками, стратегия управления рисками.

Giriş.

Turizm fəaliyyəti ilə məşğul müəssisələrdə risklərin idarə edilməsi bir çox tərəflərdən mühüm əhəmiyyət kəsb edən, funksional əlamətlərdən biridir. Risklərin idarə edilməsi həmçinin turizm fəaliyyəti subyektlərinin iqtisadi təhlükəsizliyinin təmini prosesinin davamlı təkmilləşdirilməsi, onların fəaliyyətində xarici və daxili mühit amillərinin yaratdığı təhlükə və təhdidlərin proqnozlaşdırılması və müəyyən edilməsi, qarşısının alınması və risk hadisələrinin mənfi təsirlərinin azaldılması məqsədilə səmərəli tədbirlərin reallaşdırılması baxımından da prioritetləşmiş vəzifələrdən birinə çevrilməlidir. Müasir turizm fəaliyyətində rəqabətin artması, turizmin təhdid yaradan çoxsaylı daxili və xarici, təbii və antropogen təsirlərə həssaslığı, təhlükəsizlik problemlərinin və təhdidlərin turizmin inkişafına ciddi mənfi təsirləri, turizm

biznesinin inkişafının daha qlobal mahiyyət qazanması, milli, regional, qlobal turizm bazarlarına xidmət və məhsul təklifində sıçrayışlı artım və digər amillər müəssisələrin iqtisadi təhlükəsizliyinin təmin edilməsinə daha ciddi yanaşmaların formalaşdırılmasını vacibləşdirir.

Çoxsaylı amillərin təsirindən gərginləşən iqtisadi-siyasi vəziyyətin törəməsi kimi təzahür edən mənfi təsirlər, kənar təsirlərə həssaslığı, risklərə davamsızlığı ilə seçilən sahibkarlıq fəaliyyəti subyektlərinə, o cümlədən turizm müəssisələrinə mövcud şərtlərdə sahə bazarlarında mövcudluqlarının qorunması və fəaliyyətlərinin davmlılığının təmini üçün iqtisadi təhlükəsizliklərinə təhdid yaradan risklərin idarə edilməsinə xüsusi diqqət vermələrini şərtləndirir. Əsasən qeyd edilən amillərdən qaynaqlanan iqtisadi təhlükəsizlik problemlərinin həlli, sürətlə dəyişən mühit şərtlərində onların mahiyyətinin nəzəri aspektlərinin dərk edilməsini və həllinə nail olmağın təcrübi yollarını və üsullarını müəyyən etməyi tələb edir. Milli iqtisadi sistemdə inkişafın təmini üçün cari dövrdə və perspektivdə turizm müəssisələrinin strateji məqsədlərinin reallaşdırılmasına xidmət edən iqtisadi təhlükəsizliyinin təmini, bütün səviyyələrdə risklərin səmərəli idarə edilməsi mexanizmlərinin tərtibini və tətbiqini vacib vəzifələrdən biri kimi ön sıraya qoyur.

Müasir turizm bazarında iqtisadi təhlükəsizliyə təhdid və təhlükə yaradan risklərin mənbələrinin çoxsaylılığı, onların idarə edilməsinə səmərəli yanaşma və üsulların tərtibinə, təcrübi nümunələrin tətbiqi zərurətini artırır. Eyni zamanda turizm fəaliyyətinin son illər genişlənməsi, milli və qlobal iqtisadiyyatda rolunun xeyli artması, turizmdən əldə edilən gəlirlərin həcminin milli və qlobal ÜDM-də yüksəlməsi ilə yanaşı, müəyyən hadisələr bu sahədə əsas iqtisadi göstəricilərin turist axınlarının sayının və gəlirlərin azalmasına səbəb olur. Məsələn, 2019-cu ildə qlobal turizmdə səfərlərin sayı 1,48 mild., turizmdən əldə edilən gəlirlər 1,6 trln. $, dünya ÜDM-də turizmin payı 8,9 trln. $ təşkil etdiyi halda [10], COVİD-19 epidemiyasının təsirindən 2020-ci ildə turist səfərlərinin sayında 85%-dək azalma olmuş, turizm gəlirləri cəmi 320 mln., dünya ÜDM-də turizmin payı 1,6% ABŞ dolları təşkil etmişdir [13]. Qeyd edilən halları nəzərə alaraq demək olar ki, təhdid ehtimalı artdığı dövrdə turizmdə iqtisadi təhlükəsizliyin təmininin və bu mühüm məqsədə nail olmağın mühüm elementlərindən olan risklərin idarə edilməsinin nə qədər əhəmiyyətli olması təsəvvür edilə bilər.

Bu sahədə görülən tədbirlər, risklərin idarə edilməsinin səmərəli üsul və mexanizmlərinin yaradılması və istifadəsi turizm müəssisələrinin iqtisadi təhlükəsizliyinin qorunması, yaxşılaşdırılması ilə yanaşı, onların maliyyə təminatı və maliyyə dayanıqlılığı baxımından da əhəmiyyətli məsələlərdən biri olur. Xüsusilə, müxtəlif mənşəli təhdidlərin, təhlükələrin və amillərin (təbii, antropogen) təsirindən yaranan qeyri-müəyyənlik şəraitində turizmdə risklərin idarəçiliyi və subyektlərin iqtisadi təhlükəsizlik sistemində mənfi dəyişikliklər ehtimalının minimallaşdırılması və sabitliyə nail olunması məsələləri ciddi xarakter alır. İqtisadi təhlükəsizliyə yaranan təhdidlərin nəticəsi kimi təzahür edən riskli vəziyyətlərin səmərəli idarə edilməsi həm də, fəaliyyətdə ümumi idarəetmə problemlərindən olan keyfiyyət və maliyyə sabitliyi idarəçiliyinin çevik və sabit mexanizminin formalaşdırılmasında mühüm sütunlarından biri hesab edilir.

Mövzunun aktuallığı. Son illərdə dünya iqtisadiyyatında yeni meyillərin təsirindən yaranan şərtlər, bir çox sahələrdə olduğu kimi, turizm fəaliyyəti subyektlərini də müəyyən problemlərlə qarşılaşdırır. Fəaliyyət sahələrində, qlobal iqtisadi-ticari münasibətlərdə, əlaqələrdə, istehsal və xidmət sahələrində subyektlər üçün iqtisadi təhlükələrin qarşısının alınması, iqtisadi dalğalanmalar, iqtisadi-siyasi böhranlar, qlobal güc mərkəzlərinin nüfuz və təsir dairələrinin genişləndirilməsi üçün mübarizələrinin kəskinləşməsi və digər problemlər, müasir dövrün fenomenal fəaliyyət növlərindən olan turizmin də subyektlərinin iqtisadi təhlükəsizliyinə təhdid yaradır, onların perspektiv fəaliyyətini risk altına alır. Belə vəziyyətlərdə turizm sahibkarlıq subyektlərinin maliyyə-iqtisadi təhlükəsizliyinə yaranan təhdidlərin qarşısının alınması, iqtisadi sabitliyin təmini, bilavasitə mümkün risklərin səmərəli idarə edilməsi hesabına mümkünləşir. Tədqiqat iqtisadi təhlükəsizliyin təmin edilməsində mühüm istiqamətlərdən biri kimi risklərin idarə edilməsinə həsr edilib və müasir çağırışlar baxımından aktuallığı ilə fərqlənir.

Tədqiqatın məqsədi. Məqsəd risk yönümlü idarəetmə əsasında turizm fəaliyyəti subyektlərinin iqtisadi təhlükəsizliyinin təmininə və iqtisadi dayanıqlılıq səviyyəsinin

yüksəldilməsinə təhdid olan risklərin idarə edilməsinin mühüm istiqamətlərdən biri olmasını və iqtisadi təhlükəsizlik sisteminə inteqrasiya prinsiplərini nəzəri-təcrübi əsaslandırmaq, mümkün risklərin, təhlükələrin və təhdidlərin subyektlərin iqtisadi təhlükəsizlik səviyyəsinə təsirini dəqiqləşdirmək və risklərin səmərəli idarə edilməsi tədbirlərini müəyyən etməkdir.

Materiallar və metodlar. Tədqiqatda iqtisadi təhlükəsizliyin təmininə dair müxtəlif elmi mənbələrdə yayımlanmış analitik materiallardan, internet ehtiyatlarından yararlanılçışdır. Tədqiqatın metodologiyasında sistemli və kompleks yanaşmanı əsas götürülmüşdür.

İşdə təhlil, müqayisə, ümuiləşdirmə, sintez və deduksiya metodlarından istifadə edilib.

Tədqiqatın elmi yeniliyi. Araşdırmaların nəticəsində turizm subyektlərinin iqtisadi təhlükəsizliyin təmininin əhəmiyyəti əsaslandırılmış və bu məsələdə əsas təhdidlərdən birinin risklərin olması təsbit edilmişdir. Müəyyən edilmişdir ki, ölkəmizdə turizm subyektlərinin əksəriyyətində müvafiq quruluş bölmələri fəaliyyət göstərmir və belə bölmələrin yaradılması istiqamətində müəyyən addımlar atılır. Turizm subyektlərində iqtisadi təhlükəsizliyin təmininə nail olmaq üçün risklərin idarə edilməsi strategiyasının və onun tətbiqi mexanizminin formalaşdırılması məqsədilə xüsusi bölmələrin təsis edilməsi və ümumi idarəetmə strukturuna inteqrasiyasına nail olunması əsaslandırılmışdır. Risk əsaslı idarəetmə metodunun tətbiqi tövsiyə edilmiş, onun turizm subyektləri üçün daha səmərəli iqtisadi üstünlüklər təmin edəcəyi diqqətə çatdırılmışdır.

Müzakirə. Turizm sənayesi sahələrində uğurlu fəaliyyət və davamlı inkişafa nail olunması, turizm məhsulları və xidmətləri istehsal və bazara təklif edən sahibkarlıq subyektlərinin iqtisadi potensialından, bu potensialın səmərəli istifadəsindən və təhlükəsizliyinin təminindən asılı olur. Təcrübə və tədqiqatlar göstərir ki, iqtisadi təhlükəsizliyin təmini müasir şərtlərdə və münasibətlər sistemində müəyyən problemlər səbəbindən çətinləşməkdədir. Bu çətinliklərin aradan qaldırılması və subyektlərin fəaliyyətində səmərəliliyin artırılması, iqtisadi göstəricilərə mənfi təsir edən risk hallarının idarə edilməsi üçün önləyici tədbirlərin planlaşdırılması və reallaşdırılmasına ehtiyac yaranır.

Hər bir fəaliyyət sahəsi risk elementinin baş vermə ehtimalına açıqdır və turizmdə də risk hadisələrinin olması istisna deyil. Ümumiyyətlə, əksər fəaliyyət sahələrindəki kimi, turizm fəaliyyətində də risklər müxtəlif forma və vəziyyətlərdə baş verə və turizm fəaliyyəti subyektlərinin iqtisadi təhlükəsizliyinə təhdid yarada bilər. Onlardan iqtisadi, siyasi, texnoloji, təbii, sosial-demoqrafik [8], subyektiv, obyektiv, maliyyə [15], siyasi-iqtisadi sabitsizlik, sağlamlıq, terror, lokal müharibələr [7], qavranılan, istehsal zamanı yaranan, məhsuldarlıqla bağlı [9], innovasiya [12], tur başlamamış və tur prosesində yaranan [16], təbii fəlakətlərin yaratdığı [3] və s. riskləri qeyd etmək olar.

Turizm müəssisələrinin iqtisadi təhlükəsizliyinin təmini üzrə önləyici tədbirlərin həyata keçirilməsi sistemində risklərin idarə edilməsi prosesi, mahiyyətcə istənilən subyektin məcmu fəaliyyəti prosesində ehtimal edilən və ya baş verən risk hadisələrinin törətdiyi mənfi təsirlərinin səviyyəsini azaltmağı əsas məqsəd hesab edir [6]. Bundan əlavə, risklərin idarə edilməsi, müəyyən problemli iqtisadi vəziyyətlərdə idarəetmə qərarlarının qəbulunda mümkün müsbət təsirləri maksimum dərəcədə artırmağı məqsəd hesab edir ki, bu da bilavasitə müəssisənin dayanıqlılığına, iqtisadi təhlükəsizliyinə xidmət edir [4].

Hal-hazırda turizm sahibkarlığı subyektlərinin bir çox ölkələrin, o cümlədən Azərbaycanın iqtisadi inkişafında əhəmiyyətinin artması, ölkəmizin iqtisadi sistemində turizmin prioritet sahələrdən biri hesab edilməsi, bu sahədə risklərin səmərəli idarə edilməsi ilə bağlı yanaşmalarda pərakəndəliyin aradan qaldırılmasına xidmət edən tədbirlərin görülməsini tələb edir.

Ümumiyyətlə, riskləri, təhdidləri və təhlükələri idarə etmək üçün daha effektiv yollar və üsullar seçmək üçün subyektlərin iqtisadi təhlükəsizlik və dayanıqlılıq səviyyəsinə mənfi təsiri ilə fərqlənən amillərin müəyyən edilməsi lazımdır [2]. Bu, turizm subyektlərinin iqtisadi təhlükələrə uyğunlaşdırılmış fəaliyyətinin təmini üçün müvafiq nəzəri və metodoloji əsaslar olduqda risklərin idarəçiliyi təcrübələrinin tətbiqinə, subyektlər üçün həm iqtisadi təhlükəsizliyə qarşı risklərin idarə edilməsi, təsirlərinin azaldılması və qarşısının alınmasına, həm də bütövlükdə turizm sənayesinin strateji məqsədlərinin və maraqlarının ən üst həddə təmin edilməsinə imkan yaradır.

İstənilən turizm müəssisəsi üçün risklərin yaratdığı qeyri-müəyyənlik vəziyyəti, onun fəaliyyəti prosesində iqtisadi təhlükəsizlik səviyyəsinin dəyişməsinə, daha doğrusu pisləşməsinə, gəlirlərin azalmasına, bazarlarda dayanıqlılığın zəifləməsinə səbəb olur. Ona görə hər bir müəssisənin iqtisadi təhlükəsizlik sisteminin prioritet məqsədlərindən biri risklərin, təhlükələrin və təhdidlərin səmərəli idarəçiliyi yolu ilə təsirlərini minimallaşdırmaq və qeyri-müəyyənlik vəziyyətindən ən qısa zamanda çıxmaq olmalıdır.

Risklərin idarə edilməsi prosesində sistemli yanaşmanın təmin edilməsi də mühüm vəzifələrdən biri olmalıdır [14, s.36]. Bu yanaşma prosesin idarə edilməsi zamanı müəyyən risk növlərinin və ya iqtisadi təhlükəsizlik sisteminin idarə olunmasını yox, bütövlükdə müəssisənin riskə əsaslanan kompleks idarə olunmasını, müəssisənin iqtisadi təhlükəsizliyinin təmin edilməsində funksional rolu baxımından vahid, bölünməz qrup təşkil edən, müəssisə daxilində baş verən bütün qarşılıqlı asılı və bağlı proseslərin məcmu idarəçiliyini, o cümlədən, risklərin idarə edilməsinin müəssisənin ümumi idarəetmə sisteminə inteqrasiyasını nəzərdə tutur.

Turizm subyektlərinin iqtisadi təhlükəsizliyinin təmini sistemində riskə əsaslanan idarəetmənin tətbiqində məqsəd bu üsulun "klassik risklərin idarə edilməsi" üsulundan fərqləndirən xüsusiyyətləridir [11]. Bildiyimiz kimi, risklərin idarə edilməsində ənənəvi üsulların tətbiqi zamanı idarəetmənin obyektindən-risklərdən yayınmaq, riskin mənfi nəticələrini və təsirlərini minimuma endirmək və ya subyektin xeyrinə istiqamətləndirmək üçün idarəetmə manipulyasiyaları etməkdirsə, riskə əsaslanan idarəetmədə obyekt bilavasitə ehtimal edilən, baş verən risklərdir. İdarəetmənin əsas diqqət mərkəzində olan məhz bu risklər subyektin ümumi fəaliyyətinə, hər bir altsisteminə, aktivlərinə təsir edir və iqtisadi təhlükəsizliyin səviyyəsinə təhdid yaradır, onun iqtisadi sisteminin səmərəliliyin mənfi təsir göstərərək aşağı salır.

Eyni zamanda tətbiq edilən bu idarəetmə metodunun funksiyaları da ənənəvi metodların funksiyalarından fərqlənir. Həmin funksiyalara:

-risk baş verməsi halında onun mənfi təsirindən yaranan ziyanın hesablanması;

-risklərin idarə edilməsi prosesinin planlaşdırılması və təşkili;

-risklərin idarə edilməsinə peşəkar personalın cəlb edilməsi;

-riskləri idarəetmə personalının öz vəzifələrini vicdanla yerinə yetirmələrinin təşviqi;

-risklərin idarə edilməsi tədbirlərinin nəticələrinin monitorinqinin aparılması;

-risklərin idarə edilməsi prosesinin nəticələrinin qiymətləndirilməsi;

-perspektivdə risklərin idarə edilməsi prosesində düzəlişlərin aparılması və təkmilləşdirmə tədbirlərinin həyata keçirilməsi aid edilir.

İqtisadi təhlükəsizliyin təminə xidmət edən bu üsulla idarəetmənin funksiyaları aşağıdakıları məsələlərin həllini nəzərdə tutur:

-risklərin aşkarlanması;

-risklərin təsirlərinin təhlili və qiymətləndirilməsi;

-risklərin baş vermə ehtimalı səviyyəsinin dəqiqləşdilməsi;

-risklərin qarşısının alınması, təsirlərini minim həddə endirilməsi;

-riskin nəticələrini aradan qaldırmaq, ziyanlarını kompensasiya etmək üçün ən optimal idarəetmə tərzlərinin ayırd edilməsi;

-gələcəkdə risklərin qarşısının alınması üçün önləyici təhlükəsizlik tədbirlərinin planlaşdırılması.

Turizm subyektlərinin iqtisadi təhlükəsizliyinin təmini və dayanıqlılığının artırılması mexanizminin optimal quruluşunun formalaşdırılması və işlək vəziyyətdə saxlanması fəaliyyət müddətində mümkün, ehtimallı və baş verən risklərin, təhlükələrin və təhdidlərin yaratdığı müxtəlif mənfi təsirlərə çevik reaksiyalar verməyə zəmin yaradır. İqtisadi təhlükəsizliyin təminə imkan verən çevik tədbirlər kompleksində risklərin effektiv idarə edilməsi onların mənfi işarəli təzahürlərini aradan qaldırmaq, idarəetmənin sayəsində əldə edilən müsbət iqtisadi nəticələrdən digər məqsədlərlə (əlavə dəyərin yaradılması, istehsalın həcminin artırılması, yeni xidmətlərin və məhsulların istehsalı, innovasiya fəaliyyətinin genişləndirilməsi, ticari-iqtisadi əlaqələrin şaxələndirilməsi və s.) istifadə imkanlarını genişləndirir.

Deməli, risklərin iqtisadi təhlükəsizliyin təmini və səviyyəsinin yüksəldilməsi məqsədilə səmərəli idarə edilməsi prosesinin sistemləşdirilməsi və institutlaşdırılması mühüm əhəmiyyət kəsb edir [1]. Eyni zamanda, təcrübələr təsdiq edir ki, risklərin səmərəli idarə edilməsi hallarında belə iqtisadi təhlükəsizlik səviyyəsinin vəziyyəti mənfi işarəli olur, çünki subyektlərin əsas iqtisadi göstəricilərinin minimal səviyyədə pisləşməsinə nail olmaq üçün mövcud potensialın müəyyən hissəsi iqtisadi itkilərin kompensasiyasına istiqamətləndirilir və risklərin önlənməsi tədbirlərinin təşkilinə və mənfi təsirlərinin qarşısının alınmasına sərf edilir.

Risk ehtimalının və hadisəsinin baş verməsi zamanı təsirlərinin minimallaşdırılması təcrübəsinin yaranması və təkmilləşdirilməsi, turizm subyektlərinə analoji hallarda maliyyə və əmlak itkilərinin artması həmini məhdudlaşdıra, iqtisadi potensialını və ehtiyatlarını digər iqtisadi maraqları üçün istifadəyə yönəltməyə, risklərin mənfi nəticələrinin azaldılması tədbirlərinin planlaşdırılmasına, riskə təsir etmək üçün ən optimal idarəetmə qərarlarının işlənməsinə, yaxud digər subyektlərdən qabaqcıl təcrübə və üsulların əldə edilməsinə və başqa seçimlərə imkan verir.

Turizm subyektlərinin iqtisadi təhlükəsizlik vəziyyətinin arzu olunan səviyyədə saxlanması məqsədilə qeyd etdiyimiz və digər tədbirlərin həyata keçirilməsi ümumi təhlükəsizlik elminin nəzərə məsələlərini tədqiq edənləri və təcrübi tətbiqçiləri, məcmu turizm sənayesi sahələri üçün turizm subyektlərinin iqtisadi təhlükəsizlik sistemində və onun təminə təhdid yaradan risklərin idarə edilməsində, həmçinin turizm sahibkarlığı prosesinin təşkili və həyata keçirilməsində risklərin idarə edilməsinin nəzəri-metodiki əsaslarının və bu sahədə mövcud təcrübələri əhatə edən informasiya bazasının yaradılması əsas prioritetlərdən biri olmalıdır.

Araşdırmalar və inkişaf etmiş ölkələrin turizm sənayesi subyektlərində iqtisadi təhlükəsizliyin təminə yönələn risklərin idarə edilməsi, riskə əsaslanan idarəetmə üsulunun tətbiqinin daha səmərəli nəticənin əldə edilməsinə imkan verir, subyektlərin maliyyə aktivlərinin qorunması və iqtisadi səmərəliliyin artırılmasında daha müsbət nəticələri təmin edir. Bu üsulun tətbiqi turizm subyektlərinə risklərin idarə edilməsi və təsirlərinin minimallaşdırılması ilə yanaşı, həm strateji idarəetmə, həm də maliyyə əməliyyatlarının idarə edilməsinin əlverişli vasitə kimi istifadə edilir.

Araşdırmalar göstərir ki, risk əsaslı idarəetmə üsulu, müəssisənin məcmu fəaliyyətinin və biznes əməliyyatlarının planlaşdırılması, təşkili və idarə edilməsi sisteminə inteqrasiya edərək, bir çox risk ehtimalı və hadisələrinə qarşı bəri başdan müəyyən hazırlıqlar görür və önləyici tədbirlərin mexanizmini tərtib edir, işçi personalı risk hallarına psixoloji hazırlayır ki, bu da olduqca vacib məsələlərdəndir. Eyni zamanda risklərin idarəçiliyinə bu yanaşma turizm subyektləri üçün aşağıdakı üstünlükləri təmin edir:

-maliyyə vəsaitlərinin qorunması və dövriyyəsinin səmərəliliyinin artırılması;

-fəaliyyətin, risklərin idarəçiliyi və maliyyə əməliyyatlarının tənzimləyici meyarlara uyğunluğunun təmin edilməsi;

-müəssisənin iqtisadi potensialının və dəyərinin artırılması;

-müəssisənin strateji məqsədlərinə daha az maliyyə xərcləməklə nail olunması;

-rəqabət qabiliyyətinin və korporativ reytinqin artırılması;

-iqtisadi dalğalanmalar və böhran halları dövründə iqtisadi dayanıqlılığın saxlanması;

-iqtisadi-ticari əlaqələrin genişləndirilməsi və münasibətlərin inkişafına nail olunması;

-yeni bazarlara daxil olmaq imkanlarının qazanılması, fəaliyyət istiqamətlərinin şaxələndirilməsi;

-fəaliyyətin ümumi səmərəlilik səviyyəsinin davamlı artırılması.

Bu idarəetmə üsulunun digər üstün cəhəti əsas idarəetmə qərarlarının razılaşdırılmış qəbulu və icrası prosesində risklərin idarə edilməsi mütəxəssislərinin iştirakı alternativ imkanlara müstəqil yanaşma təmin edir və risklərlə əlaqəli problemlərin aşkarlanması və həllinə imkan verən məsələlərin daha açıq və geniş müzakirəsinə əlavə töhfə verir. Bu həm də risklərin idarəçiliyində obyektiv olmayan məlumatlara rast gəlinməsi probleminin aradan qaldırılması, idarəetmənin həllində vacib olan vacib etibarlı informasiyaların alınması, ümumi müzakirəyə təqdim edilməsi baxımından da daha əlverişli üsuldur.

Digər üstünlük kimi onu qeyd edə bilərik ki, riskə əsaslanan idarəetmədən istifadə, turizm subyektlərinin bazar dəyərinin və rəqabətliliyin yüksəldilməsi sayəsində cari və strateji məqsədlərə nail olunmağın, iqtisadi dayanıqlılığın təmin edilməsi vasitələrinin biri hesab edilir ki, bu da risklərin idarə edilməsinin cari dövrdə və uzunmüddətli perspektivdə müəssisələrə əlavə dəyəri yaratmaq, iqtisadi potensialı və iqtisadi təhlükəsizliyi üst səviyyədə saxlamaq ehtimalını göcləndirən qənaətə gəlməyə əsas yaradır.

Subyektlərin personalının risk və ümumi idarəetmə qərarlarının qəbulunda fəal iştirakı onların şəxsi qarşılıqlı ünsiyyətlərində maneələrin, şübhələrin aradan qaldırılması və düşüncələrini sərbəst ifadə etmələrinə imkan yaradılması, müəssisədə əks əlaqə kanallarının genişlənməsinə, uğurlu fəaliyyətin və iqtisadi təhlükələrə qarşı immunitetin güclənməsinin mühüm hərəkətverici amillərindən olan korporativ risk idarəetmə mədəniyyətinin, riskə əsaslanan idarəetmə ənənəsinin təşəkkülünə zəmin yaradır.

Təcrübə göstərir ki, risklərin idarə edilməsində korporativ mədəniyyətin formalaşması, turizm sənayesi subyektlərində bilavasitə risklərin idarə edilməsinə məsul olan strukturun yaradılmasını vacibləşdirir. Bir çox ölkələrdə bu təcrübə yayılmaqdadır və bu, risk idarəçiliyində səmərəliliyin artırılmasının yeni mərhələsinin əsasını qoyur. Məsələn, bəzi Avropa İttifaqı ölkələrində turizm müəssisələrinin 56%-də "risklərin idarə edilməsi strukturları" fəaliyyət göstərir, müəssisələrin 32%-i daha çox həmin strukturlarla əməkdaşlıq edir, onların təcrübələrindən yararlanırlar və risklərin idarə edilməsinin əlaqələndirilməsinə cavabdeh olan ayrıca struktura malikdirlər [5]. Analoji strukturları olmayan turizm fəaliyyəti subyektləri əsasən kiçik və daha çox yerli səviyyəli turizm müəssisələridir və onlar risklərin idarə edilməsi funksiyasını daxili audit, maliyyə menecerləri, təhlükəsizlik bölməsi personalına həvalə edirlər.

Azərbaycanda, xüsusilə turizm sənayesi sahələrində və turizm subyektlərində risklərin idarə edilməsi üzrə sistemləşdirilmiş yanaşma hələ ki, mövcud deyil və bu mühüm məsələdə problemlərin həllinə, yəni risklərin proqnozlaşdırılması, qiymətləndirilməsi, önləyici tədbirlərin planlaşdırılması, risk hadisələrinin qarşısının alınması, nəticələrinin minimallaşdırılması və zərərin kompensasiyası, risk hadisələrinin sığortası və digər problemlərin həllinə yönələn mexanizmin işlənməsi üzrə tədbirlərin həyata keçirilməsi vacibliyi öz aktuallığını qorumaqdadır.

Qeyd edək ki, müxtəlif iqtisadi fəaliyyət sahələrində, məsələn bankçılıqda risklərin idarə edilməsi qaydaları (Banklarda risklərin idarə olunması haqqında Qaydalar) tətbiq edilir, müxtəlif banklarda (Mərkəzi bank, Bank Respublika, Premium Bank), maliyyə qurumlarında (Milli Depozit Mərkəzi) risklərin idarə edilməsi şöbələri yaradılıb, bəzi risklərin idarə edilməsinin bankların idarəetmə sisteminə inteqrasiyası, risklərin idarəçiliyinə dair işlərin sxemi və xəritəsi, icra prinsipləri, strategiyaların tərtibi üzrə tədbirlər görülür.

Turizm sənayesi sahələrində iqtisadi təhlükəsizliyin təmini üçün risklərin idarə edilməsi üzrə ayrıca strukturlarının fəaliyyəti hələ ki, lazımi səviyyədə formalaşmayıb. Lakin bu sahədə müəyyən nümunələr və təşəbbüslər var. Bir neçə yerləşmə müəssisəsində-Baku Marriott Hotel Boulevard "Sağlamlıq və təhlükəsizlik meneceri" vəzifəsi təsis edilib [17] və onun risk idarəetmə funksiyalarına müəssisənin sanitar-gigiyenik vəziyyətin, personalın və qidalanma sisteminin təhlükəsizliyinin təmininin monitorinqi və müvafiq tələblərə uyğunluğuna nəzarət etməkdir. Intercontinental Hotel Baku otelində "təhlükəsizlik meneceri"nin funksiyalarına ümumi təhlükəsizliyə, fiziki və əməliyyat risklərinin azaldılmasına nəzarət daxildir [18]. Bunlardan başqa risklərin idarə edilməsi ilə bağlı müəyyən dolayı tədbirlər-turoperatorlara maliyyə öhtəlikləri tələbi maliyyə risklərinin, turizm xidmətləri müəssisələrində müəyyən yoluxucu xəstəliklərə qarşı tədbirlərin görülməsi və sanitar-gigiyenik standartlara tələblərin sərtləşdirilməsi risk idarəetməsinin tətbiqini şərtləndirir. Turizm subyektlərinin iqtisadi təhlükəsizliyi səviyyəsinin qorunması və yüksəldilməsi məqsədilə müxtəlif təhlükələrin, təhdidlərin və risklərin qarşısının alınması məqsədilə risk yönümlü idarəetmə strukturlarının yaradılmasına yüksək komfortluluq səviyyəli (***** və lüks dərəcəli hotellər, rezortlar) yerləşmə müəssisələri, yüksək iqtisadi potensiallı turoperatorlar, qidalanma, nəqliyyat, əyləncə müəssisələrində ehtiyac yaranmışdır.

Milli turizm subyektlərinin iqtisadi təhlükəsizliyi və dayanıqlılığı probleminin həlli və risklərin təsirlərinin minimallaşdırılması, o cümlədən turistlərin sağlamlığına mümkün təhdidlərin

qarşısının alınması məqsədilə Dövlət Turizm Agentliyi və Azərbaycan Turizm Bürosunun birgə hazırladığı "Sanitariya və Gigiyena Minimum Anlayışları Nizamlanması" tələblərinin (AHMAN), turizm destinasiyaları və bölgələrində ekoloji risklərin idarə edilməsində "Qlobal Davamlı Turizm Şurası"nın **(**GSTC) standartlarının tətbiqi və digər tədbirlər turizm subyektlərində risk idarəçiliyinin daha geniş yayılmasına zəmin yaradır.

Ümumiyyətlə, turizm subyektlərində risklərin idarə edilməsi strukturlarının qurulması iqtisadi təhlükəsizliyin təmin edilməsi ilə yanaşı, digər iqtisadi, sosial, psixoloji və digər üstünlüklər təmin edir. Onlardan:

-risklərin idarəçiliyi siyasətinin formalaşdırılması və səmərəli tətbiqi;

-risklərin baş verməsi zamanı fəaliyyətin digər təhlükəsizlik quruluşları ilə əlaqələndirilməsi və tədbirlərin görülməsində səylərin birləşdirilməsi;

-turizm subyektlərində sanitariya-gigiyena standartlarının tətbiqi, turistlərin və müəssisə personalının təhlükəsizliyinin yüksək səviyyədə təmini;

-fövqəladə hallarda (yanğın, uçqun, texniki, kimyəvi, bioloji, fiziki və s.) təhlükələrin qarşısının alınması və ya azaldılması;

-risk hadisələrində turistlərlə risklərin idarə edilməsi və təhlükəsizlik qurumları ilə əlaqə və rabitənin qurulması;

-operativ təxliyənin təşkili və ilkin tibbi, psixoloji yardımın göstərilməsi;

-risk hadisələrinin nəticələrinin qiymətləndirilməsi, vurulan zərərin müəyyən edilməsi və ödənməsi;

-risklərin idarəçiliyi sahəsində perspektiv fəaliyyətdə strategiyanın daha təkmil səviyyəyə qaldırılması və s.

Qeyd edilənlər onu deməyə və belə qənaətə gəlməyə əsas verir ki, risklərin idarə edilməsi turizm fəaliyyəti subyektlərinin iqtisadi təhlükəsizlinin təmini istiqamətlərindən biri kimi mühüm əhəmiyyət kəsb edir və turizmin davamlı inkişafına zəmin yaradan amillərdən hesab edilir. Deməli turizm müəssisələrində risklərin idarə edilməsi struktur bölməsinin yaradılması və səmərəli fəaliyyətinə nail olunması turizm subyektlərinin, bütövlükdə milli turizm sənayesinin inkişafına töhfə verər, sahənin iqtisadi təhlükəsizliyinin, rəqabət qabiliyyətinin, gəlirliliyinin artırılmasına təminat yaradar.

Nəticə. Tədqiqatlar göstərir ki, turizm fəaliyyətinin müxtəlif mənşəli təsirlərə həssaslığı onun subyektlərinin iqtisadi dayanıqlılığına müəyyən təhdidlər yaradır ki, bu da fəaliyyətin uğurlu davamında mühüm amil olan iqtisadi təhlükəsizliyin təminini çətinləşdirir və perspektiv fəaliyyəti risk altına salır. Ona görə risklərin idarə edilməsi prosesinin subyektlərin biznes fəaliyyətinin bütün mərhələlərinə inteqrasiyasını təmin etmək zərurətini, bu izə risk idarəetmə strukturunun yaradılmasını qarşıya qoyur. Subyektlərin risk idarəçiliyi strukturunun yaradılması, müəssisənin iqtisadi təhlükəsizliyinə təhdid yaradan, ehtimal edilən fərqli mənşəli riskləri, təhlükələri və təhdidləri vaxtında müəyyən etmək, onlara yönələn önləyici işlər planlaşdırmaq və icra etmək, bəzən qarşılarını almaq imkanı yaradır.

Turizm subyektlərində mümkün risklərin səmərəli idarə edilməsi ilə iqtisadi təhlükəsizliyin təminə nail olunması, bilavasitə risklərin idarə edilməsi konsepsiyasının işlənib hazırlanması və reallaşdırılması mexanizminin tərtibini, bu konsepsiyanın subyektin ümumi idarəetmə strukturuna inteqrasiyasını, idarəetməyə peşəkar personalın cəlbini, subyektin bölmələri və digər təhlükəsizlik quruluşları ilə əməkdaşlığın genişləndirilməsini, çevik əlaqələrin təminini, risk hadisələri zamanı sürətli kommunikasiyanın qurulmasını şərtləndirir.

Tədqiqata əsasən, bildiririk ki, turizm subyektlərində risklərin idarə edilməsi aşağıdakı üstünlüklər yaradır:

-subyektin ümumi idarəçiliyində qərar qəbulunda risklər haqqında məlumatların nəzərə alınması iqtisadi təhlükələrdən yayınmaq mümkünləşir;

-biznes fəaliyyətinin strateji planlaşdırılmasında risk ehtimalının nəzərə alınması məqsədlərə daha səmərəli nail olunmasına imkan verir;

-subyektin iqtisadi potensialının artırılmasının vacib şərti olan büdcənin daha səmərəli tərtib edilir;

-maliyyə vəsaitlərinin gəlir-xərc göstəriciləri arasında müqayisədə gəlir hissənin artması təmin edilir;

-müəssisə personalında daha məhsuldar fəaliyyətə motiv yaranır və s.

Turizm fəaliyyəti subyektlərinin iqtisadi təhlükəsizliyinin təminində, qeyd edilən və digər müsbət meyillərin təmin edilməsində risklərin idarə edilməsinin rolunu qiymətləndirərək diqqətə çatdırmağı vacib hesab edirik ki, milli turizm sənayesi subyektlərinin təşkilati-idarəetmə strukturunda risklərin idarə edilməsi bölməsinin yaradılması məsələsi ön plana çəkilməli və reallaşdırılması prosesləri sürətləndirilməlidir.

ƏDƏBİYYAT

1.Azim, M., Shamsun N. Risk disclosure practices: Does institutional imperative matter? Public Money & Management 2021, 42: pp. 388-394.

2.Bianco, M., Andrea G. Inventory and corporate risk management. Review of Corporate Finance Studies 2019. 8: 97-105.

3.Caber, M., González-Rodríguez, M. R., Albayrak, T. & Simonetti, B. Does perceived risk really matter in travel behaviour? Journal of Vacation Marketing 2020. 26(3), 334-353. https://doi.org/10.1177/1356766720927762 (p. 335).

4.Kähkönen, A-K/, Katrina L., Jukka H. Sustainable supply management practices: Making a difference in a firm's sustainability performance. Supply Chain Management: An International Journal. 2018. 23: 518-30.

5.Kalina, I., Khurdei V., Shevchuk V., Vlasiuk T., Leonidov I. Introduction of a Corporate Security Risk Management System: The Experience of Poland. Journal of Risk and Financial Management 2022.15: 335. https://doi.org/10.3390/ jrfm15080335.

6.Khanyile, N.S. Innocent M., Justus N. A. Evaluating the relationship between communication management practices and project outcomes: A case study of Eswatini (Swaziland) construction industry. Construction Economics and Building 2019.19: 197-219.

7.Lepp, A. & Gibson, H. Tourist roles, perceived risk and international tourism. Annals of Tourism Research 2003. 30(3), 606-624. https://doi.org/10.1016/S0160-7383(03)00024-0 (p. 609, p. 611, pp. 615-616.

8.Shaw G. K. A rısk management model for the tourısm ındustry ın South Afrıca. North-West University, 2010, 245 p. s.5.

9.Tussyadiah, I. P. Factors of satisfaction and intention to use peer-to-peer accommodation. International Journal of Hospitality Management, 2016. 55, 70-80.

10.UNWTO World Tourism Barometer 26 01.2020. Madrid. 28 p.

11.Villanueva, E., Nuñez M. A., Martins I. Impact of Risk Governance, Associated Practices and Tools on Enterprise Risk Management: Some Evidence from Colombia. Revista Finanzas y Política Económica. 2022,14: 187-206.

12.Киселева И.А., Симонович Н.Е., Литвинова А.В., Шаповалов Ю.А. Инновационные риски на рынке туристских услуг // Вестник ВГУИТ. 2017. Т. 79. № 4. С. 344-349. doi:10.20914/2310-1202-2017-4-344-349.

13.Международные туристические поездки в 2019 году – изменения по регионам (%). [Электронный ресурс]. Режим доступа: https://www.unwto.org/.

14.Основы экономической безопасности: (Государство, регион, предприятие, личность) : учеб.-практ. пособ. / Рос. экон. акад. им. Г. В. Плеханова; под ред. Е. А. Олейникова М.: ЗАО "Бизнесс-школа" Интел-Синтез", 2017. 279 с.

15.Плоткина Н.П. Классификационные признаки туристских рисков. https://s.esrae.ru › tourism › pdf.

16.Яковлева Л.А., Косенкова Ю.Ю., Зобова Е.В. Специфика рисков в туризме в Российской Федерации. Социально-экономические явления и процессы. 2017, Т 12, №5. с. 62-69. doi: 10.20310/1819-8813-2017-12-5-62-69.

17.careers. boulevard@absheronhotelgroup.com.

18.www.ihg.com/hotels/gb/en/reservation).

Məqalənin redaksiyaya daxilolma tarixi: 14.11.2025
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 19.11.2025
Məqalənin çapa daxil olunma tarixi: 06.12.2025